# Qəbələ daha bir beynəlxalq tədbirə—Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun final yarışlarına ev sahibliyi edir

## Bu möhtəşəm tədbir Qəbələmizin tarixinə yazılacaq yeni bir səhifədir.

Müstəqil Azərbaycan, o cümlədən onun dilbər guşələrindən biri olan Qəbələ son illərdə ardıcıl olaraq-dövlət başçılarının zirvə toplantılarına, bir sıra regional və beynəlxalq tədbirlərə, həmçinin, mədəniyyət, incəsənət və idman tədbirlərinə ev sahibliyi edir. Əlbəttə, bütün bu uğurlar, qələbələr Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin bəhrələridir. Bu uğurlar, bu qələbələr eyni zamanda ölkə Prezidenti İlham Əliyev tərəfindən Azərbaycana miras qalan Heydər Əliyev siyasətinin dərin zəka, möhkəm iradə və cəsarətlə, inamla həyata keçirilməsinin nəticəsində baş verir. Artıq bu fikiri bir çox dövlətlərin siyasi xadimləri, ekspetlər də təsdiq etməkdədirlər. Həqiqət də göz qabağındadır. Azərbaycanda iyun ayında keçirilən ilk Avropa Oyunlarının uğurla başa çatması bir daha bəzi şər qüvvələrin fikirlərini alt-üst etdi. Dünyanın bir çox nüfuzlü ölkələrini həm iqtisadi, həm siyasi böhran çulğaladığı bir vaxtda Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edir və bununla yanaşı dünyanın iqtisadi və siyasi arenasında nüfuzu da artmaqdadır.

Budur, dünya ictimaiyyətini heyrətləndirən ilk Avropa Oyunlarının və Qəbələdə keçilən VII Beynəlxalq Musiqi Festivalının həyacanı hələ soyumamış avqustun 6-dan başlayaraq Qəbələ daha bir mötəbər və cahanşümul tədbirə—Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku uğrunda yarışlara ev sahibliyi edir. Bu yarışlar 2015-ci il ərzində Avropa və dünya çempionatlarından sonra ən mühüm yarış hesab edilir və ötən bir il ərzində yarışların 5 mərhələsi ABŞ, Almaniya, BƏƏ, Kipr və Meksikada keçirilmişdir. Yarışların 6-cı mərhələsi, yəni final görüşləri avqustun 6-dan Qəbələdə davam edir.





Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun yarışları Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin dəstəyi və Qəbələ Atıcılıq Klubunun, Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı ilə keçirilir.

Beynəlxalq tədbirin açılış mərasimində Qəbələ rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Azərbaycan Atıcılıq Federasiyasının vitse prezidenti Hafiz Cəfərov, Azərbaycan gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti Oleqario Vaskes Ranyan, Beynəlxalq İdman Atıcılıq Federasiyasının baş katibi Frans Şrayber, Avrorpa Atıcılıq Konfederasiyasının prezidenti Vladimir Lisinin və Qəbələ İdman Klubunun rəisi Tale Heydərov iştirak edirlər. Yarışlarda 100-ə yaxın ölkədən 2000-ə qədər idmançı mübarizə aparır. Avqustun 16-dək davam edəcək yarışlar Beynəlxalq İdman Atıcılıq Federasiyasının rəsmi televiziya kanalı olan SST TV vasitəsilə canlı yayımlanır.

Yarışların açılış mərasiminin keçirilməsi üçün Qəbələnin çox mənzərəli, unikal gözəlliyə malik bir guşəsi seçilmişdir. Bu guşə sıx palıd, vələs, ağcaqayın, müxtəlif peyvənd və cır meyvələrlə zəngin olan, qayalarının altından çıxan buz kimi soyuq və zümzüməli bulaqları ilə seçilən dağların qoynunda yerləşir. Burada ən müasir arxitektura tələblərinə cavab verən, hətta müasirliyi ilə Bakıda və bir çox iri dövlətlərdə belə olmayan möhtəşəm Heydər Əliyev Konqres Mərkəzi ucalır.

Hələ açılış mərasimi başlamazdan xeyli əvvəl buraya gələn qonaqlar ətrafdakı təbii gözəlliyə malik dağ mənzərələrini xüsusi heyranlıqla seyr edirdilər. Bir qədər aşağıda isə axşama az qalsa da hələ qızmar yay günəşinin od ələməsinə baxmayaraq burada sərin dağ havasını bir şirin nemət kimi ciyərlərinə çəkən insanlar heyran-heyran ətrafa nəzər salırdılar.

Artıq Günəş zirvələri dəniz səviyyəsindən 2—3 min metr hündür olan və sinəsi al-yaşıla bürünən dağların arxasında yavaş-yavaş gizlənməyə başlayır. Elə bu vaxt proqram üzrə yarışların açılış mərasimi üçün müəyyən edilmiş vaxt yaxınlaşır. Qonaqlar, idmançılar, tədbir üçün gələn maraqlı yerlilər yavaş-yavaş Heydər Əliyev Konqres Mərkəzinin foyesinə daxil olur, buradan keçib unikal dizayna malik salonda öz yerlərini tuturlar. Mərkəzin girişində və foyesində qonaqlar üçün hər cür rahatlıq yaradılmış, onlara lazımi qulluq göstərilirdi. Salona rəngbərəng çıl-çıraqlar xüsusi yaraşıq verir, bu abıhava hər bir insana xoş əhval-ruhiyyə bəxş edirdi. Səhnədə qədim Azərbaycanın simvolu olan alov dilləri şölələnirdi. Çox keçmir ki, «Natiq» ritm qrupu qədim döyüş səhnələrini əks etdirən «cəngi» rəqsi ilə səhnəyə daxil olur. İlk Azərbaycan musiqisi tamaşaçılar tərəfindən gurultulu alqnışlarla qarşılanır.

Tədbirin azərbaycan və ingilis dillərində aparıcıları səhnədə görünürlər. Qonaqları salamlamaq və çıxış etmək üçün ilk söz Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevə verilir. Cənab başçı əvvəlcə qonaqları, idmançıları və bütün tədbir iştirakçılarını rayon icra hakimiyyəti adından və şəxsən öz adından hərarətlə salamlayır, belə bir möhtəşəm və dünyada papulyar olan yarışın Qəbələdə keçirilməsindən gurur hissi duyduğunu nəzər-diqqətə çatdırır və yarış iştirakçılarına uğurlar arzulayır **(Səbuhi Abdullayevin çıxışı qəzetimizdə dərc edilir).**

Sonra mərasimdə Qəbələ İdman Klubunun rəisi Tale Heydərov, Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Hafiz Cəfərov, Azərbaycan gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Beynəlxalq İdman və Atıcılıq Federasiyasının prezidenti Oleqari Vaskes Ranyan və başqaları bir-birinin ardınca çıxış edərək son illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın sürətindən, Azərbaycanın idman ölkəsi kimi tanınmasından, Olimpiya idmanı yarışlarına qoşulmasından, gələn il Braziliyanın Rio-de Janeyro şəhərində keçiriləcək yay Olimpiya Oyunları üçün 34 lisenziya uğrunda mübarizə aparılacağından söhbət acmışlar. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Qəbələ İdman klubunun rəisi Tale Heydərov çıxışlarında bildirmişlər ki, Azərbaycan İdmanının əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasət ölkə başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

**(Ardı 3-cü səhifədə).**